# *Yeni Papa XIV LEO:* "İsa bizə sevgini prioritet üzrə bölməyi öyrətmir"

## Vatikanın ABŞ-li başçısı poliqlotdur - 5 dildə danışa, 2 dildə oxuya bilir

**Xəbər verildiyi kimi, Vatikanda keçirilən konklavdan sonra 69 yaşlı amerikalı kardinal Robert Frensis Prevo yeni Roma Papası seçilib. ABŞ-dən gələn ilk Papa XIV Leo adını alıb.**





Seçkilər ötən ayın 21-də Roma Papası Fransiskin ölümündən sonra toplaşan kardinallar kollegiyasının iclaslarının - konklavın ikinci günündə - mayın 8-də baş tutub. Səsvermədən sonra Sikstin kapellasının bacasından yeni pontifikin seçilməsinin ənənəvi simvolu olan ağ tüstü qalxıb.

Bundan sonra Prevo Müqəddəs Pyotr məbədinin eyvanından dünyaya təqdim edilib. Elanı protodiakon kimi çıxış edən fransız kardinal Dominik Mamberti latınca verib: "Habemus Papam" - "Bizim Papamız var". Prevo Katolik Kilsəsinin 267-ci Papası oldu. Onun 133 kardinaldan ən azı 89-nun dəstəyini aldığı bildirilir. Əvvəlki 266 pontifikin əksəriyyəti italyan idi. Yalnız 2013-cü ildə Amerika qitəsindən ilk Papa seçilib - argentinalı Fransisk.

Robert Frensis Prevo - XIV Leo 1955-ci il sentyabrın 14-də ABŞ-nin İllinoys ştatının Çikaqo şəhərində anadan olub. Onun atası Lui Marius Prevo fransız və italyanəsilli İkinci Dünya müharibəsi veteranı, anası Mildred Martinez isə ispanəsilli idi. Hər ikisi qatı dindar olub.

Robert Frensis Prevo 1982-ci ildə keşiş təyin edilib. Uzun illər Peruda xidmət edib və 2015-ci ildə Peru vətəndaşlığını alıb. 2023-cü ilə qədər Çiklayo şəhərində yeparxiyanın rəhbəri olmuş Prevonu həmin il Papa Fransisk Yepiskopların işləri üzrə Dikasteriyanın başçısı təyin edib. Bu orqan bütün dünyada yüksək kilsə vəzifələrinə namizədlərin nəzərdən keçirilməsinə cavabdehdir.

Qeyd olunur ki, Prevo yoxsulluq və miqrasiya siyasəti məsələlərində Fransisklə oxşar fikirlərə malikdir.

Bu arada ABŞ Prezidenti Donald Tramp tarixdə ilk ABŞ-li Papanı təbrik edərək, bunun Amerika üçün böyük şərəf olduğunu bildirib. Bununla belə dünya mediası qeyd edir ki, sosial şəbəkələrdə Prevo yeni Amerika administrasiyasının ən azı bir məsələdə - miqrantlara münasibətdə siyasətini tənqid edib. "The New Republic" qəzetinin xatırlatdığı kimi, Prevo 2018-ci ildə Trampın birinci prezidentliyi dövründə retvit etdiyi yazılardan birində demişdi: "Uşaqları valideynlərindən alıb qəfəsə salan siyasətdə xristian, amerikalı və ya mənəvi cəhətdən əsaslandırıla bilən heç nə yoxdur. Bu, bizim adımızdan edilir və biabırçılıq hamımızın üzərinə düşür".

Prevo təkrar yayımladığı başqa bir yazıda ritorik olaraq ABŞ administrasiyasından qanunsuz mühacirlərə verilən əzabları görüb-görmədiyini soruşur. Bu ilin fevral ayında isə R.F.Prevo ABŞ-nin vitse-prezidenti ilə mübahisə edib və Cey Di Vensin "xristian anlayışı var: əvvəlcə ailəni, sonra qonşunu, sonra icmanı, sonra həmvətənlərini və yalnız bundan sonra dünyanın qalan hissəsini sevirsən, lakin sol tərəfdə olanların çoxu bütün bunları tamamilə alt-üst edib" sözlərinə "National Catholic Reporter" nəşrində "İsa bizdən sevgimizi siyahı üzrə bölüşməyi tələb etmir" başlıqlı köşə yazısında belə cavab verib: "Di Vens səhv edir. İsa bizə sevgini prioritet üzrə bölməyi öyrətmir".

Yeni Papa həm də poliqlotdur: o, ingilis, ispan, italyan, fransız və portuqal dillərində danışa bilir, latınca və almanca oxumağı bacarır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 10 may (№95).- S.19.